# Azərbaycanın iqtisadi potensialı sabitliyi qoruyub saxlamağa imkan verir

*Son vaxtlar dünyanın əsas müzakirə mövzusuna çevrilən və müxtəlif ölkələrə sürətlə yayılan koronavirusla bağlı vəziyyət Azərbaycanda ciddi nəzarət altındadır. Hökumət bu virusun yayılmasının qarşısının alınması və profilaktikası ilə bağlı bütün lazımi tədbirləri görür.*




Ölkədə hər kəsin narahatlığına səbəb olan koronavirus təhlükəsi ilə əlaqədar problemə Prezident İlham Əliyev Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışındakı çıxışı zamanı toxunub. Dövlət başçısı xatırladıb ki, onun göstərişi ilə Nazirlər Kabinetinin yanında xüsusi operativ qərargah yaradılıb, lazımi tədbirlərin daha sürətlə həyata keçirilməsi üçün əlavə 10 milyon manat vəsait ayrılıb. İranda qalan Azərbaycan vətəndaşlarının təxliyə edilməsi üçün xüsusi tədbirlər həyata keçirilib: “Onların həm quru sərhəddən, həm də hava nəqliyyatı vasitəsilə Azərbaycana gətirilməsi təmin ediləcək. Ancaq hər kəs anlamalıdır, onlar lazım olan müddət ərzində karantində qalmalıdırlar ki, Azərbaycanda xəstəlik yayılmasın”.

Prezident çıxışında koronavirusun yayılmasının qarşısının alınması məqsədilə ölkədəki bütün tədris, təlim-tərbiyə müəssisələrinin müvəqqəti bağlanması məsələsinə də aydınlıq gətirərək qeyd edib ki, bu qərarın məqsədi uşaqları, yeniyetmələri sözügedən xəstəlikdən qorumaqdır: “Yəni bütün lazımi tədbirlər görülür. Azərbaycanda bu xəstəliyin bu günə olan məlumata görə, yayılması ehtimalı o qədər də yüksək deyil. Ancaq deyə bilərəm ki, gündə bir neçə dəfə bu məsələ ilə bağlı ölkə ərazisində monitorinqlər aparılır, bütün sərhəd-keçid məntəqələrində xüsusi cihazlar quraşdırılıbdır”.

Burada dövlətimizin başçısının toxunduğu bir məqamı da xatırladaq. Cənubi Qafqazın nəqliyyat-tranzit qovşağı olan Azərbaycandan, həm də beynəlxalq yükdaşımalar həyata keçirilir. Çindən Avropaya ən qısa yol Azərbaycandan keçir. Dövlət başçısı çıxışında bu məsələyə də diqqət çəkib. Heç bir ölkənin yükdaşımaların həyata keçirilməsinə məhdudiyyət qoymadığını xatırladan Prezident bildirib ki, tranzit potensialının gücləndirilməsini qarşısına məqsəd qoymuş Azərbaycan da analoji mövqe nümayiş etdirir. Bununla yanaşı, xəstəliyin yayılmaması üçün bütün məsələlər hər bir xırdalığa qədər düşünülür və müvafiq addımlar atılır: “Azərbaycan tranzit ölkədir və biz uzun illər çalışırdıq ki, öz tranzit potensialımızı genişləndirək, buna nail ola bilmişik. Heç bir tranzit yüklər üçün məhdudiyyət qoyulmur. Ancaq bu sahəyə də xüsusi diqqət göstərərək tranzit yüklərin, xüsusilə Cənub istiqamətindən ölkəmizə daxil olan, həm Azərbaycan istehlakçıları, həm də qonşu ölkələrin istehlakçıları üçün lazımi yüklərin çatdırılması ilə bağlı mütəşəkkil qaydada işlər aparılır, müvafiq yük maşınlarından ibarət xüsusi kolonlar formalaşdırılır, polis müşayiəti təmin edilib. Eyni zamanda göstəriş vermişəm, xarici sürücülərə yemək təqdim edilsin ki, onlar idarə etdikləri maşınlardan tez-tez çıxıb ictimai yerlərə getməsinlər. Yəni hər bir xırdalığa qədər düşünülmüş addımlar atılır, bunun da məqsədi Azərbaycan vətəndaşlarını bu xəstəlikdən qorumaqdır. Bu günə qədər bizim bütün addımlarımız uğurla nəticələnib. Biz daim Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq və xəstəliyi aşkar etmək üçün testlərin ölkəmizə gətirilməsi ilə bağlı işlər aparılır, bu məsələ öz həllini tapır”.

Yeri gəlmişkən, qeyd edək ki, iqtisadi sektorda da Azərbaycan hökuməti virusla bağlı qabaqlayıcı tədbirlər reallaşdırır. Həm də bu bir faktdır ki, ötən illər ərzində yaradılan iqtisadi-maliyyə potensialı vəziyyətdən ciddi itkilərsiz çıxmağa, sabitliyi qoruyub-saxlamağa imkan verir. Hazırda valyuta ehtiyatlarımızın 52 milyard dollar həddində olması bunun bariz ifadəsidir.

Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda yuxarıda vurğulanan göstərici ilə bağlı deyib: “Valyuta ehtiyatlarımız 6,4 milyard dollar artıb. Bu, deyə bilərəm ki, son illər ərzində rekord göstəricidir. Baxmayaraq ki, büdcəmiz rekord həddə çatmışdır, biz yenə də valyuta ehtiyatlarımızı artırmışıq. Bu, daim belə olubdur. Hətta bizim üçün ən ağır, böhranlı illərdə, - o vaxt ki, dünya bazarlarında neftin qiyməti dörd dəfə düşmüşdü, - yenə də biz valyuta ehtiyatlarımızı artırmışdıq. Ancaq keçən il 6,4 milyard dollar həcmində artım, əlbəttə ki, düşünülmüş siyasəti əks etdirir. Biz vəsaitimizə qənaət edirik. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə dövlət investisiyaları qoyuruq. Eyni zamanda, valyuta ehtiyatlarımızın idarə edilməsindən də daha böyük vəsait əldə edirik. Burada bir çox amillər özünü göstərir. Çünki bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik bir ölkədir, həm siyasi müstəvidə, həm iqtisadi sahədə, biznesin inkişafı baxımından”.

Yeri gəlmişkən, Azərbaycanın valyuta ehtiyatlarının getdikcə artması iqtisadi islahatların daim diqqət mərkəzində saxlanılmasının məntiqi nəticəsidir. Xatırladaq ki, 2004-cü ildə birinci regional Dövlət Proqramı hazırlanıb qəbul edilən zaman respublikamızın valyuta ehtiyatları cəmi 1,8 milyard dollar idi. Azərbaycan, hətta ən çətin illərdə, dünyada maliyyə böhranı hökm sürdüyü dövrdə – 2015-ci, 2016-cı, 2017-ci illərdə belə valyuta ehtiyatlarını qoruya və artıra bildi. Təkcə 2019-cu ildə ölkəmizin valyuta ehtiyatları 6,4 milyard dollar, cari ilin yanvarında isə 1 milyard dollar artdı. Hazırda Azərbaycanın valyuta ehtiyatları 52 milyard dollara çatıb. Bu, ölkənin iqtisadi müstəqilliyinin və böyük dərəcədə siyasi müstəqilliyinin təminatıdır.

Göründüyü kimi, 2004-cü ildə 1,8 milyard dollar olan valyuta ehtiyatlarımız hazırda 52 milyard dollar civarındadır. Bu isə ötən müddətdə valyuta ehtiyatlarının 27 dəfə artması deməkdir. Azərbaycan adambaşına düşən valyuta ehtiyatlarına görə, MDB məkanında birinci yerdədir.

Dünya bazarında neftin ucuzlaşmasına gəldikdə isə, ekspertlərin fikrincə, bu, müvəqqətidir. Nəzərə almaq lazımdır ki, qiymətin düşməsi əsasən, Çində yayılmış koronavirusun nəticəsidir. Bu virus isə tədricən, havalar istiləşdikcə aradan qalxacaq və neftin qiyməti yenidən artmağa başlayacaq.

Ekspertlər bildirirlər ki, “qara qızıl”ın ucuzlaşması Azərbaycanın gəlirlərini azaltsa da, bundan narahat olmaq lazım deyil, çünki ölkə iqtisadiyyatı dayanıqlıdır. Azərbaycanın indiki valyuta ehtiyatları da iqtisadi sabitliyi qoruyub-saxlamağa imkan verir. Manatın məzənnəsi təkcə neftin qiymətindən asılı deyil. Milli valyutanın arxasında qeyri-neft sektoruna aid kifayət qədər əmtəə və xidmət dayanır, bütün bunlar iqtisadiyyatın sabitliyinə xidmət edir. Yəni, bir neçə il əvvəlki kəskin devalvasiya hazırda real deyil. Bu gün manatın valyuta bazarındakı mövqeyi kifayət qədər möhkəmdir.

“Xalq qəzeti”